**Qeyri-neft sektorunda səmərəli investisiya layihələri**

Qeyri-neft-qaz sektoruna investisiyaların cəlb olunması Azərbaycanın iqtisadi siyasətinin başlıca hədəflərindən biridir. Bu məqsədlə investisiya mühitinin yaxşılaşdırılması, daxili və xarici sərmayələrə dövlət təminatının gücləndirilməsi sahəsində həyata keçirilən tədbirlər səmərəli nəticələr verir. 2011-ci ildə ölkə iqtisadiyyatına 20 milyard dollar sərmayənin qoyulması da investisiya mühitinin cəlbediciliyinin artdığını göstərir.

Təsadüfi deyil ki, «Doing Business-2012» hesabatında Azərbaycan dünya ölkələri arasında «biznesə başlamaq» göstəricisi üzrə 18-ci, «investorun müdafiəsi» göstəricisi üzrə 24-cü, «müqavilələrin təmin edilməsi» göstəricisi üzrə 25-ci yerə layiq görülüb.

Yerli və xarici sərmayələrə dövlət təminatının gücləndirilməsi, habelə biznes strukturlarının müştərək layihələrə marağının artırılması məqsədilə yaradılmış Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) bu istiqamətdəki fəaliyyəti də praktik nəticələr verir. Şirkətdən aldığımız məlumata görə, 2011-ci ildə aktivləri 4,5 milyon manat artaraq 174,8 milyon manat təşkil edən şirkət fəaliyyət göstərdiyi 5 ildə 14,5 milyon manat mənfəət əldə edib. AİŞ dövlət investisiya fondu olaraq Azərbaycan iqtisadiyyatına sərmayə yatırmaq istəyən yerli və əcnəbi iş adamlarına investisiya ortaqlığı təklif edir. Qeyri-neft-qaz sektorunda mövcud imkanlardan səmərəli şəkildə yararlanmaq üçün şirkət potensial investisiya partnyorlarını birgə investisiya fondları yaratmağa dəvət edir. Bu məqsədlə hələ 2008-ci ildə bir sıra beynəlxalq institusional investorlar ilə birgə Xəzər Beynəlxalq İnvestisiya Şirkəti (XBİŞ) yaradılıb. AİŞ-in 24,1% paya malik olduğu şirkətin digər səhmdarları arasında İslam İnkişaf Bankı, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası və Orta Şərq dövlətlərindən digər nüfuzlu investorlar iştirak edirlər.

2011-ci ildə şirkətin həyata keçirdiyi investisiya qoyuluşları sayəsində paytaxtda və regionlarda bir sıra yeni obyektlər, müəssisələr işə salınıb, yeni iş yerlərinin açılması təmin olunub. Şirkət 3,3 milyon manat investisiya yatıraraq yüksək keyfiyyətli toxum istehsalı müəssisəsi olan «Azərtoxum» MMC-də 17,5% pay əldə edib. «R1» və «R2» reproduksiyalı toxum sortlarının yaradılması üçün müasir texnologiya və avadanlıqlarla təchiz edilmiş müəssisə, eyni zamanda, taxılın təmizlənməsi və toxumların hazırlanması məqsədilə üçüncü tərəflərə xidmətlər göstərir. Müəssisənin fəaliyyətə başlaması nəticəsində 83 nəfər işlə təmin olunub.

AİŞ tərəfindən 1,3 milyon investisiya qoyulan «N.A.A Aqrotara» MMC isə hazırda meyvə qurudulması və emalı müəssisəsi kimi fəaliyyət göstərir. Layihə çərçivəsində 150 daimi, 60 mövsümi iş yeri açılıb. Bundan başqa, şirkətin investisiya ortağı olduğu «Milk-Pro» MMC-nin Hövsan qəsəbəsində yüksək keyfiyyətli məhsul istehsal edən yeni süd zavodu 2012-ci ilin yanvarından tam gücü ilə işə salınıb. Daxili bazarda süd və süd məhsullarına olan ehtiyacın ödənilməsində əhəmiyyətli olan layihə çərçivəsində 160 nəfər yeni iş yeri ilə təmin olunub.

Səhmlərinin 10%-i AİŞ-ə məxsus «Qaradağ Sement» ASC-nin yenidən qurulması layihəsi üzrə quru istehsal texnologiyasına əsaslanan yeni sobanın tikintisi işləri 2011-ci ilin dekabr ayında başa çatdırılıb və zavodda ilk dəfə klinker istehsal edilib. Sobanın 2012-ci ildə tam gücü ilə istismara verilməsi nəzərdə tutulur. Layihənin icrası nəticəsində sement və klinker istehsalı 50% artacaq.

AİŞ-lə «Azərsun Holding»in birgə layihəsi olan «Səngəçal-Qaradağ Neft və Qaz Terminalı» QSC ötən ilin birinci rübündə layihənin başlanğıc fazasını (Start-up Phase) istismara verib. Xəzər dənizi sahilində yaradılan bu müasir infrastruktur enerji daşıyıcılarının Azərbaycan vasitəsi ilə Orta Asiyadan Avropa bazarlarına nəqlinə xidmət edir. İl ərzində 514 min ton qaz kondensatı və 500 min ton neft qəbul edib yola salmaq gücünə malik olan terminalda başlanğıc mərhələdə 70 yeni iş yeri yaradılıb.

AİŞ-in ARDNŞ və Sinqapurun «Keppel Offshore&Marine» şirkəti ilə birgə həyata keçirdiyi Bakı Gəmiqayırma Zavodunun nizamnamə kapitalına 30 milyon dollar məbləğində investisiya qoyuluşu həyata keçirilib. Zavodun 2013-cü ilin üçüncü rübündə istismara verilməsi nəzərdə tutulur. Layihə çərçivəsində 1000-ə yaxın yeni iş yeri yaradılacaq. Zavod istismara verildikdən sonra birinci mərhələdə ildə 4 ədəd 15 min ton yükgötürmə qabiliyyətinə malik tanker, 4 ədəd dəniz təchizat və ya yedək gəmisi tikmək imkanına malik olacaq. Yeni gəmilərin tikintisindən əlavə, zavodda il ərzində 80-100 gəminin təmiri də nəzərdə tutulub. Ümumilikdə 2011-ci il ərzində AİŞ tərəfindən

Bakı Gəmiqayırma Zavoduna 30 milyon ABŞ dolları məbləğində investisiya qoyuluşu həyata keçirilib.

Şirkət 2012-ci ildə «Ağstafa Aqroservis», «Uşaq qidasının qablaşdırılması», «İşlənmiş akkumulyatorların təkrar emalı» və digər layihələrə investisiya qoyuluşlarını həyata keçirmək niyyətindədir. Ümumilikdə, qeyri-neft-qaz sənayesində yeni müəssisələrin işə salınması vergitutma bazasının genişlənməsinə və büdcə daxilolmalarının artmasına imkan yaradır.

S.MUSTAFAYEV